# «NAMƏLUM AXUNDZADƏ»

Bəlli olduğu kimi, 2012-ci ildə M.F.Axundzadənin 200 illik yubileyi keçiriləcək. Bu yubiley çərçivəsində ölkəmizin müxtəlif teatrlarında dramaturqun ədəbi irsi əsasında bir sıra tamaşaların hazırlanması və nümayişi nəzərdə tutulur.

Bilənlər bilir, bilməyənlər agah olsun ki, artıq M.F.Axundzadənin 200 illik yubileyi ilə əlaqədar tədbirlər keçirilməyə başlayıb. Belə ki, cari ayın birinci yarısında Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin düzənlədiyi paytaxtda fəaliyyət göstərən xalq teatrlarının festivalı məhz bu əlamətdar hadisəyə ithaf olunub. Bakı Şəhər Xalq Teatrları Festivalı çərçivəsində 9 xalq teatrı, 5 dram dərnəyi və 1 kukla teatrı dramaturqun «Hekayəti-xırs-quldurbasan», «Sərgüzəşti-vəziri-xani-Lənkəran», «Hekayəti-müsyö Jordan həkimi-nəbatat və Dərviş Məstəli şah cadukünі-məşhur», «Hekayəti-molla İbrahimxəlil kimyagər», «Mürafiə vəkillərinin hekayəti» və «Hekayəti-mərdi xəsis» komediyalarını əsasında hazırladıqları tamaşaları nümayiş etdirib. Festivalda 15 kollektiv iştirak edib və müsabiqənin nəticələrinə əsasən I, II, III yerlər və ən yaxşı rejissor işi, ən yaxşı musiqi tərtibatı, ən yaxşı kişi rolu, ən yaxşı qadın rolu nominasiyaları üzrə qaliblər (I yer - Nizami adına Mədəniyyət Mərkəzinin «Mərdəkan» Xalq teatrı, II yer H.Sarabski adına Mədəniyyət evinin Xalq teatrı, III yer - Müşfiqabad qəsəbə Mədəniyyət evinin dram dərnəyi, ən yaxşı rejissor işi - Rəhman Əlizadə ən yaxşı musiqi tərtibatı - H.Sarabski adına Mədəniyyət evinin Xalq teatrı, ən yaxşı qadın rolu ifaçısı - Müşfiqabad qəsəbə Mədəniyyət evinin dram dərnəyinin üzvü Aidə Əhmədzadə, ən yaxşı kişi rolu ifaçısı - Nizami adına Mədəniyyət Mərkəzinin «Mərdəkan» Xalq teatrının üzvü Nizami Əlizadə) diplom və fəxri fərmanlar ilə təltif olunublar. Təqdimat mərasimindən sonra 2012-ci il Bakı Şəhər Xalq Teatrları Festivalının qalibi Nizami adına Mədəniyyət Mərkəzinin «Mərdəkan» Xalq Teatrının ifasında Mirzə Fətəli Axundzadənin «Mürafiə

vəkillərinin hekayəti» əsasında «Vəkillərin məkrləri» (Tamaşanın müəllifi əməkdar incənət xadimi Rəhman Əlizadə) məzhəkəsi nümayiş etdirilib.

Cari ilin 1-25 iyun tarixlərində isə görkəmli dramaturqun 200 illik yubileyinə həsr olunmuş daha bir festival baş tutacaq. Ölkə üzrə 27 teatr kollektivinin iştirak edəcəyi festivalda M.F.Axundzadənin əsərləri əsasında hazırlanan tamaşalar nümayiş olunacaq. Festivalda təqdim olunan tamaşaların böyük qismi dövlət sifarişi üsulu ilə hazırlanıb (və ya hazırlanır).

Festival hazırlıqlarının necə getdiyini, dövlət teatrlarının bu festivalda hansı tamaşalarla iştirak etdiyini öyrənmək istədik. Öyrəndik də. İnşaallah, mütəmadi şəkildə yerli teatrlardakı festival hazırlıqları barədə Sizləri xəbərdar edəcəyik, sayğıdəyər oxucum.

Bu dəfəki yazımızda isə YUĞ Teatrından, daha dəqiq desək, YUĞ Teatrının M.F.Axundzadənin 200 illik yubileyinə həsr olunmuş Teatr Festivalına hazırlığından danışaq. Teatrın mətbuat xidmətindən və rejissor Gümrah Ömərdən aldığımız məlumatları Sizlərlə paylaşmaq təmənnasındayıq.

Teatrdan verilən məlumata görə, görkəmli dramaturqun 200 illik yubileyi münasibəti ilə YUĞ Dövlət Teatrında «Naməlum Axundzadə» adlı teatr layihəsininin keçirilməsi planlaşdırılır. Layihə çərçivəsində dövlət sifarişi üsulu ilə hazırlanacaq «Naməlum Axundzadə» tamaşası ilə yanaşı, bir sıra konfransların, görüşlərin, müzakirələrin və digər tədbirlərin keçirilməsi də nəzərdə tutulur.

Tamaşanın quruluşçu rejissoru Gumrah Ömər vurğuladı ki, «M.F.Axundzadənin 200 illik yubileyi münasibətilə keçirilməsi aktuallaşan «Naməlum Axundzadə» teatr layihəsi Azərbaycan Dövlət YUĞ Teatrında ədibin yaradıcılığı əsasında prinsipcə yeni tamaşanın hazırlanmasını nəzərdə tutur. Bu tamaşa M.F.Axundzadə irsinin fərqli, bu günə qədər qapalı qalan aspektlərini işıqlandıracaq.

138 yaşlı Azərbaycan teatrını təmsil edən bütün sənət ocaqlarında M.F.Axundzadənin pyesləri əsasında hazırlanan tamaşaların sayəsində neçə-neçə rejissor və aktyor nəsilləri yetişib. İnanırıq ki, M.F.Axundzadənin pyesləri müasir dövrdə çağdaş teatr sənətinin yeni bədii-estetik prinsipləri

çərçivəsində səhnəyə gətirilərsə, bu, milli teatr sənəti üçün təkanverici amil rolunu oynaya bilər.

Özündə Avropa modelli dramaturgiyanın tələb və şərtlərini (dramaturji metod – yəni, zaman, məkan, potensial konflikt), həmçinin sakral arxetipik mənaları ehtiva edən Axundzadə pyesləri XXI əsrdə də yeni teatr sənəti üçün ədəbi əsas rolunu oynamağa qadirdir.

Buna görə də biz Azərbaycan Dövlət YUĞ Teatrı olaraq, M.F.Axundzadənin əsərlərini özəl poetikamız («PSİXOSOF») çərçivəsində fərqli aspektdən səhnələmək cəhdində bulunacağıq. Başlıca məqsəd M.F.Axundzadə irsinin bu günə qədər aşkarlanmayan naməlum tərəflərini işıqlandırmaqdan ibarətdir.

Onu da qeyd edək ki, tamaşada YUĞ Dövlət Teatrının müxtəlif yaş nəslinə mənsub aktyorları, Fərhad İsrafilov, Məmməd Səfa, Sonaxanım Mikayılova, Gülzar Qurbanova, Vidadi Həsənov, Yaqut Paşazadə, Zümrüd Bəxtiyar və Hikmət Rəhimov çıxış edirlər. Tamaşanın məşqləri artıq yekunlaşmaq üzrədir. Çox güman ki, YUĞun tamaşaçıları bu səhnə əsərini gələn ayın əvvəllərində görə biləcəklər.

Sağlıq olsun!

Tamaşa hazır olanda Sizə mütləq xəbər edəcəyəm. Çünki birmənalı şəkildə düşünməkdəyəm ki, bu tamaşaların ictimaiyyətə retranslassiyası öz növbəsində «maraq dalğası»nı yaratmağa və nəticədə ictimai düşüncədə M.F.Axundzadənin fərqli obrazını formalaşdırmağa qadirdir.

**Könül ƏLİZADƏ**
**Teatrşünas**